F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Nəsirəddin Tusinin Azərbaycan və Dünya Elmində Yeri

Ensiklopedik alim, riyaziyyatçı, astronom, məntiqçi Nəsirəddin Tusinin 825 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı – 2026**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Nəsirəddin Tusinin Azərbaycan və Dünya Elmində Yeri -** Nəsirəddin Tusinin 825 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait;F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026.- 22s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

# Giriş

Əxlaq insanın daxilindəki nizamdır."
"Elm insanı cahillikdən qurtaran ən böyük sərvətdir."
"İnsanın dəyəri onun ağlı və əməlləri ilə ölçülür."
Nəsrəddin Tusi

Azərbaycan və ümumilikdə Şərq elmi-fəlsəfi fikrinin inkişafında mühüm yer tutan görkəmli alim və mütəfəkkir Nəsirəddin Tusi (1201–1274) çoxşaxəli elmi irsi ilə dünya elminin tanınmış simalarından biridir. Azərbaycan elmi-fəlsəfi fikir tarixində müstəsna yer tutan görkəmli alim, filosof, riyaziyyatçı və dövlət xadimi Nəsirəddin Tusi Şərq və dünya mədəniyyətinə dərin təsir göstərmiş nadir şəxsiyyətlərdəndir. O, fəlsəfə, məntiq, riyaziyyat, astronomiya, əxlaq, ilahiyyat və dilçilik sahələrində yazdığı fundamental əsərlərlə orta əsrlər elmi düşüncəsinə dərin təsir göstərmişdir. Tusinin yaradıcılığı yalnız dövrünün elmi səviyyəsini əks etdirməyib, bu gün də aktual olan ideyalarla zəngindir.

Azərbaycan və Şərq intellektual tarixində müstəsna yer tutan görkəmli alim və mütəfəkkir Nəsirəddin Tusinin zəngin elmi irsinin təbliği kitabxanaların əsas maarifləndirici vəzifələrindən biridir. Onun fəlsəfə, əxlaq, məntiq, riyaziyyat və astronomiya sahələrində yazdığı əsərlər bu gün də oxucular üçün dəyərli bilik mənbəyi olaraq aktuallığını qoruyur.

Xacə Məhəmməd Nəsirəddin Tusi 1201-ci il fevral ayının 17-də (597 hicri) Tus şəhərində tərbiyəçi ailəsində anadan olmuşdur. Mütəfəkkirin əsl adı Məhəmməd, atasının adı Məhəmməd, babasının adı isə Həsəndir. Dövrünün ağıllı, bilikli, görkəmli alimi olduğuna görə xalq ona Nəsirəddin adını vermişdir. Tusi ləqəbini isə Tus şəhərində anadan olduğuna görə qəbul etmişdir. Mənşə etibarı ilə onun əsli Azərbaycanın ən qədim şəhərindən biri hesab edilən Həmədan şəhərindəndir. Dövründə hökmdarın qəzəbinə düçar olan gənc alim həbs edilərək əlçatmaz dağ zirvəsində yerləşən Ələmut qalasına aparılmışdır. O, burada məşəqqətli sürgün həyatı keçirir. Xoşbəxtlikdən qalada zəngin kitabxana olduğundan Nəsirəddin Tusi həbsdə keçirdiyi 12 il müddətində elmi yaradıcılıqla məşğul olmuş və bir sıra qiymətli əsərlər yazmışdır. Çingiz xanın nəvəsi Hülakü xanın Yaxın Şərqə yürüşü ilə Tusinin məhbus həyatı sona çatır. Xan Nəsirəddini və digər alim məhbusları azad edir. Nəsirəddin Hülakü xanın şəxsi məsləhətçisi təyin olunur.

Nəsrəddin Tusi (tam adı Məhəmməd ibn Məhəmməd ibn Həsən Nəsirəddin Tusi) Azərbaycan–İran mədəni mühitində yetişmiş böyük alim, filosof, riyaziyyatçı, astronom və dövlət xadimidir. İlk təhsilini ailəsində almış, ərəb və fars dillərini, məntiqi, riyaziyyatı, fəlsəfəni və dini elmləri erkən yaşlarından öyrənmişdir.

Gənclik illərində Nişapur və digər elm mərkəzlərində təhsilini davam etdirmişdir. Aristotel fəlsəfəsi, İbn Sina irsi, məntiq, həndəsə və astronomiya sahələrində dərin biliklər əldə etmişdir. XIII əsrdə monqol istilaları dövründə Tusi bir müddət İsmaililərin Alamut qalasında yaşamışdır. Bu dövr onun elmi yaradıcılığı üçün məhsuldar olmuş, bir çox fəlsəfi və əxlaqi əsərlərini məhz burada qələmə almışdır. 1274-cü ildə Bağdadda vəfat etmiş Nəsirəddin Tusi ömrünün son illərini elmi fəaliyyətlə keçirmiş, bir çox əsərlər yazmışdır. Nəcəf şəhərində dəfn olunmuşdur.

Onun zəngin elmi irsi əsrlər boyu müxtəlif elm sahələrinin – fəlsəfə, əxlaq, riyaziyyat, astronomiya, məntiq və ilahiyyatın inkişafına mühüm töhfələr vermişdir.

Təqdim olunan metodik vəsaitin hazırlanmasında əsas məqsəd kitabxanalarda Nəsirəddin Tusinin həyat və yaradıcılığını daha dolğun təbliğini təşkil etmək, oxucuların bu böyük mütəfəkkirin əsərlərinə marağını artırmaq və onların mütaliə mədəniyyətinin inkişafına dəstək verməkdir. Vəsaitdə alimin həyatı, elmi-fəlsəfi görüşləri, əsərləri sistemli şəkildə əks etdirilmiş, bu mövzuda kitabxanaçılara praktik tövsiyyələr verilmişdir. Vəsaitin hazırlanmasında əsas məqsəd kitabxana əməkdaşlarına Nəsirəddin Tusinin həyat və yaradıcılığının təbliği istiqamətində metodiki dəstək göstərmək, kitab sərgiləri, biblioqrafik icmallar, oxucu konfransları, dəyirmi masalar və digər kütləvi tədbirlərin təşkili zamanı istifadə oluna biləcək praktik tövsiyələr təqdim etməkdir. Vəsaitdə Tusinin əsas əsərləri, onların məzmun xüsusiyyətləri və oxucu auditoriyasına uyğun təqdimat formaları əks olunmuşdur. Nəsrəddin Tusinin elmi-fəlsəfi irsinin təbliğində maraqlı olan oxucular vəsaitdən faydalana bilərlər. Vəsaitdə Tusinin "Əxlaqi-Nasiri", "Əsasu'l-İqtibas", "Təhrirül-Məcalisti" və digər əsərləri haqqında verdiyimiz ümumi məlumatlar və izahlar kitabxanalarda maarifləndirmə işinin səmərəliliyinin artırılmasına, klassik irsimizin qorunmasına və gənc nəslin elmi-mədəni dünyagörüşünün formalaşmasına töhfə verəcəyinə ümid edirik.

Tədris və maarifləndirmə prosesində istifadə olunması, gənc nəslin elmi düşüncə tərzinin formalaşmasına, milli-mənəvi dəyərlərin təbliğinə və klassik irsin daha dərindən mənimsənilməsinə töhfə verəcəyinə əminik.

**Keçiriləcək tədbirlər:**

Kitabxanalarda Nəsrəddin Tusinin yubileyi ilə əlaqədar tədbirlərin təşkili məqsədəuyğundir. N.Tusi İslam dünyasının məşhur alimlərindən biri olub, astronomiya, riyaziyyat, fizika, fəlsəfə və digər elm sahələrinə mühüm töhfələr vermişdir. "N.Tusi yaradıcılığının işığında" adlı tədbirdə iştirakçılar alimin həyatına və irsinə dair maraqlı məlumatlarla tanış olur. Tədbiri giriş sözü ilə açan kitabxanaçı iştirakçıları salamlayıb tədbirin mövzusu haqqında məlumat verir. Nəsrəddin Tusi yaradıcılığına qısa bir baxış keçirən kitabxanaçı onun islam dünyasına və dünya elminə verdiyi töhfələrdən söhbət açır. Kitabxanaçı bildirir ki, tədbirin əsas məqsədi Tusinin elmi fəaliyyətini daha yaxşı anlamaq və onun zəngin irsini gələcək nəsillərə tanıtmaqdır. Tədbirə rəng qatmaq üçün Nəsrəddin Tusinin həyatı, elmi sahələrdəki uğurları, yazdığı əsərlər və onun zamanında tutduğu mövqe haqqında hazırlanan video və ya slayd təqdimatı göstərilir.

**Müzakirə**

Nəsirəddin Tusinin əsərləri riyaziyyat, astronomiya, fəlsəfə, məntiq, tibb və tərbiyə kimi bir çox elmi sahəyə dərin təsir göstərib, xüsusən "Zici-Elxani" ilə astronomiya, "Evklid" təsviri ilə riyaziyyatı Avropaya yayıb, "Əxlaqi-Nasiri" əsəri ilə isə etik və tərbiyəvi fikirləri zənginləşdirərək gələcək nəsillərə dəyərli töhfələr verib, Marağa Rəsədxanası onun astronomiya elmindəki əsas nailiyyətlərindən biridir. Müzakirədə kitabxanaçı onun "Təfsiri Şərh-i Tüslü", "Zic-i Ilxani"əsərlərinin mahiyyətini oxuculara açıqlayır. Tədbirə dəvət edilmiş Tusi yaradıcılığının tədqiqatçıları oxuculara bu əsərlər haqqında məlumat verirlər. "Zic Elxani" Nəsirəddin Tusinin astronomiya və fizika sahəsində ən məşhur astronomik cədvəl və işləmələridir, lakin onun astronomiya, fizika, riyaziyyat, geologiya, mineralogiya, tibb, coğrafiya, məntiq kimi müxtəlif sahələrə aid 100-dən artıq əsəridə var, bu əsərlər dünya alimləri üçün böyük mənbə rolunu oynamışdır. Əsər Tusi tərəfindən tərtib edilmiş, Mars, Yupiter kimi planetlər, ulduzlar və digər astronomik hadisələr haqqında məlumatları ehtiva edən dəqiq cədvəllər toplusudur. Bu əsər "Tusi Cədvəli" və ya "Tusi Cədvəlləri" kimi də tanınır və bu əsər bütün Şərq və Qərb astronomları üçün əhəmiyyətli mənbə hesab edilir. Tusinin elmi irsi geniş olub. Onun "Zic Elxani" əsəri astronomiya sahəsində ən böyük nailiyyətlərindəndir. N.Tusi fizika, riyaziyyat xüsusən həndəsə, triqonometriya, geologiya, mineralogiya, tibb, iqtisadiyyat, coğrafiya, musiqi kimi sahələrə aid əsərlər də yazmışdır. Belə əsərlərdən "Əs-Səhifə fi ilm il-hey'ət (Astronomiya haqqında risalə), "Fi 'l-İşraq fi əl-ulüm əl-tabi'iyə" (Təbiət elmlərində işıq haqqında) və işığın əks olunması, sınması (optika), cisimlərin hərəkəti kimi mövzuları əhatə edən risalələri buna misal göstərmək olar. Onun Marağa Rəsədxanasındakı işləri və Zic-i İlkhani kitabı da astronomiya sahəsindəki ən mühüm töhfələrindəndir. Bu gün bütün bəşər

mədəniyyəti və sivilizasiyası Əcəmi Əbubəkir oğlunun memarlığına, Nizami Gəncəvinin poetik istedadına, Bəhmənyarın fəlsəfəsinə, Yusif Məmmədəliyev və Lütfi Zadə kimi alimlərin kəşflərinə minnətdar qalmaqdadır. Görkəmli elm adamı, şair və ədəbiyyatşünas Nəsirəddin Tusi də məhz belə əvəzsiz şəxsiyyət və görkəmli xadimlərdən biri olub onun adı bəşər tarixində göstərdiyi misilsiz xidmətlərə görə həmişə öndə gəlir. Bu da fəxarət və qürur doğuran haldır ki, Azərbaycan xalqının görkəmli övladları Nizami Gəncəvi bəşər tarixində şeriyyət və sözün qüdrət simvolu hesab olunduğu kimi, Nəsirəddin Tusi də elmin simvolu olaraq həmişə ehtiramla xatırlanır. Tusinin qəbir daşında yazılmışdır: "Millətin və dinin müdafiəçisi, elm sahəsinin padşahı- belə oğulu zaman-ana hələ doğmamışdır"

## Türk-müsəlman dünyasının ilk əxlaq kitabı 800 il bizimlə

Əxlaqi Nasir böyük Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusinin ən məşhur fəlsəfi-əxlaqi əsərlərindən biridir. Əsər insanın mənəvi kamilliyi, ailə münasibətləri və cəmiyyətin ədalətli idarə olunması haqqında sistemli təlim təqdim edir. Əsər üç əsas hissədən ibarətdir:




Müəllifin "Əxlaqi-Nasiri" əsərində yazdığına görə "İnsan çox danışmamalı, başqasının sözünü yarımçıq kəsməməli, başqasının nağıl etdiyi hekayət və ya rəvayəti bilirsə, bunu üzə vurmamalı və onun danışıb qurtarmasına imkan yaratmalıdır. Başqasından soruşulana cavab verməməli, ümumi edilən sualda camaatı qabaqlayıb irəli düşməməlidir. Biri cavab verirsə, daha qabil cavab verməyə qadir olsa da, səbir etməli, o, sözünü qurtardıqdan sonra öz cavabını verməlidir. Başqalarının söhbətinə qarışmamalı, onlara gizlin qulaq asmamalıdır. Özləri müraciət etməsələr, söhbətə qoşulmamalıdır".

Azərbaycanın tərbiyə, məktəb və mədəniyyət tarixindən bəhs edərkən XIII əsrdə yaşamış, dünya şöhrətli mütəfəkkir Nəsrəddin Tusinin fikirlərini xatırlamamaq olmaz. Nücum, tibb, həndəsə, riyaziyyat, fəlsəfə, ədəbiyyat, psixologiya, iqtisadiyyat və s. kimi elm sahələrinə dair dəyərli əsərləri və fikirləri dahi mütəfəkkirə böyük şöhrət gətirib. Nəsrəddin Tusinin zəhməti ilə qurulan Marağa rəsədxanası Şərq elmi, təhsili və mədəniyyətinin ən əzəmətli abidələrindən biridir. Onun "Əxlaqi-Nasiri" əsəri isə yaratmış olduğu Marağa rəsədxanası qədər məşhurdur. Bu əsərin yaranma tarixini şərh edən Tusi göstərirdi ki, İsmaili hökmdarı Nasir əxlaq, fəlsəfə, məntiq məsələləri ilə maraqlandığından Tusini yanına çağıraraq Əbu Əli Əhməd İbn Məhəmməd İbn Yaqub İbn Misqəveyhin "Ət-təharə" adlı əxlaq kitabını fars dilinə tərcümə etməyi ona təklif edir. Lakin geniş dünyagörüşə və dərin

elmi biliklərə sahib olan Tusi bu kitabı tərcümə etməkdən imtina edir və "Ət-təharə" kitabında olmayan "Əxlaqın saflaşdırılması", "Ev qurmaq və şəhərlər salmaq haqqında" fəsillər daxil etməklə özünün orijinal "Əxlaqi-Nasiri" adlı kitabını yazıb tamamlayır. Bu kitab 700 ildən artıq müddətdə orta və yaxın Şərq məktəblərində əxlaq dərsliyi kimi istifadə edilib. Tusi bu kitabla özünü mahir müəllim, nəzəriyyəçi, pedaqoq, ustad olduğunu sübut edib. Nəsrəddin Tusi "Əxlaqi-Nasiri" əsərində nəzəriyyə ilə təcrübənin, elmlə əməlin əlaqəsindən danışaraq göstərir ki, elm varlıqların həqiqətən necə olduqlarını düzgün müəyyən etməklə, insanın yaradıcı ağlı və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir. Əməl (metod) isə gizli qüvvələri ortaya çıxarmaq, müxtəlif sənət və peşə üçün göstərilən fəaliyyətdir. Bu şərtlə ki, bu fəaliyyət bəşəriyyətin qüdrətinin artmasına, onun təkmilləşməsinə səbəb olsun. Nəsirəddin Tusi belə hesab edirdi ki, əgər bu fəzilətin hər ikisi kimdə varsa, o ən müdrik insan, ən kamil alimdir. Belə adamın yeri bəşər övladının tuta biləcəyi ən yüksək mövqedə durmalıdır. "Əxlaqi-Nasiri" əsərinin "Məqsədlər haqqında" bölməsi əxlaqı saflaşdırmaq baxımından olduqca maraqlıdır. Bu bölmədə uşaqların fitri qabiliyyət və istedadından, təcrübə vasitəsilə əldə olunan peşə və vərdişlərdən, mühit və şəraitdən, uşaqlıq və gənclik dövründəki tərbiyədən, insanın formalaşmasında təlim və tərbiyənin oynadığı böyük roldan danışılır. Kitabda olan müdrik söhbətlər həyati misallarla nümayiş etdirilir.Tusi ailədə tərbiyə işində əsas sima kimi müəllim və tərbiyəçilərin rolunu yüksək qiymətləndirir, onların yüksək təhsilli, elmli, əxlaqlı, tələbkar, mərhəmətli, şirin danışıqlı və ehtiramlı olmasını vacib hesab edirdi. Tərbiyə prosesində mənəvi təmizliyə, əxlaq saflığına, vicdan aydınlığına son dərəcə yüksək qiymət verən mütəfəkkir bu keyfiyyətləri uşaqlara kiçik yaşlarından aşılamağı lazım bilirdi. Tusi uşaqların əxlaq tərbiyəsində cəza, tərif, alqışlamaq, mükafat və şirnikləndirmək kimi rəğbətləndirmə vasitələrinə xüsusi yer ayırırdı. "Əxlaqi-Nasiri" əsərində "Nəfsin sağlamlığı", "Nəfsi xəstəliklərin aradan qaldırılması" kimi tərbiyə elmi üçün vacib olan fəsillər mühüm yer tutur. Burada qeyd edilir ki, uşaqların pis hərəkətlərinin səbəbini aşkara çıxarıb onları islah etdikdən sonra tərbiyə öz məqsədinə nail ola bilər. "Boyaqçı paltarı çirkdən təmizləməyincə, o lazım olan rəngi tutmaz". Tusi nəfsi sağlamlığı qorumaq üçün sağlam ruhlu, tərbiyəli, namuslu, istedadlı, nəzakətli dostlarla oturub durmağı məsləhət görürdü. İnsan nəfsini sağlamlaşdırmaq üçün faydalı əməyi əsas şərt hesab edirdi. Tusi yazırdı ki, faydalı əməyi sevməyən adam gec-tez fəlakətlə üzləşməlidir. "Əxlaqi-Nasiri" əsərində ailə quruluşu məsələsinə də xüsusi diqqət yetirilir. Tusi ailəni tam bir bədənə bənzədirdi. Ailə dolandırmaq sənətini isə bədəni sağlam saxlamaq istəyən həkimlik sənəti ilə müqayisə edirdi. O, göstərirdi ki, bədənin ayrı-ayrı hissələri ağrıdıqda, bütün bədən laxladığı kimi, ailə üzvlərinin də birinin tərbiyəsindəki naqislik bütün ailəni tar-mar edə bilər. Ona görə də ailə üzvlərinin hamısına eyni münasibət göstərmək, heç birinə üstünlük

verməmək, onların arasında düzgün əmək bölgüsü aparmaq, ailədə möhkəm nizam-intizam yaratmaq kimi davranışları möhkəm ailənin dayaqları hesab edirdi. Tusi ideal tərbiyəli ailə yaratmaq üçün ev yeri seçməyi, ev tikdirməyi, ailəni saxlamaq üçün mal toplamağı, qənaətçil olmağı, evi idarə etmək qanunlarını bilməyi, qazandığı pulları simiclik etmədən ehtiyatla xərcləməyi gənclərə öyrətməyi vacib hesab edirdi. Tusi "Əxlaqi-Nasiri" əsərində övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında da qiymətli fikirlər irəli sürüb. O, uşağın tərbiyəsində ən birinci cəhət kimi onda həya hissini oyatmağı zəruri hesab edirdi. Uşaqların tərbiyəsindən danışarkən onlara pul verməyi, maddi şeylərlə şirnikləşdirməyi qorxulu hal kimi qiymətləndirirdi. Tərbiyə üsulu kimi uşaqların şüuruna, idrakına təsir edən məntiqli söhbətlər aparmağı, tələbkarlıq və mehribanlıq göstərməyi, məhəbbət doğuran motivlərdən istifadə etməyi tövsiyə edirdi. Uşaqlara zorla yemək verməyi, bahalı paltar geyindirməyi tənqid edərək yazırdı ki, sadə geyim uşaqların həqiqi vəziyyətlərini göstərmək üçün əsas şərtdir. O, müəllim və tərbiyəçilərin uşaqların səliqəli və təmiz geyinməsinə, çox hərəkət etməsinə fikir verməlärini lazım bilirdi. Qeyd edirdi ki, uşaqlara elə tərbiyə vermək lazımdır ki, onlar ata-babalarından qalan var-dövlətlə lovğalanmasınlar, zəiflərə əl qaldırıb, güclülərə boyun əyməsinlər, tay-tuşlarına paxıllıq etməsinlər. "Əxlaqi Nasiri" əsərində qızların tərbiyəsindən danışarkən Tusi onlara evdarlıq işlərini öyrətməyi, vüqarlılıq, iffət, həya kimi xüsusiyyətləri aşılamağı vacib hesab edirdi. Qızlara cinsinə müvafiq faydalı peşələrin öyrədilməsini, onlara təhsil verilməsi zəruriliyini önə çəkərək onların bir ana kimi yetişməsi üçün lazım olan bütün keyfiyyətləri öyrətməyi tövsiyə edirdi. Tusiyə görə tərbiyənin ən müqəddəs vəzifəsi yalan danışmağın qabağını almaq, istər yalandan, istərsə də doğrudan and içməyə yol verməməkdir. And içməyi, ümumiyyətlə pis adət hesab edən mütəfəkkir yazırdı ki, "bəlkə də böyüklərin yalan danışmağa ehtiyacı olsun, lakin uşaqların buna qətiyyən ehtiyacı yoxdur". Tusi tərbiyənin lap kiçik yaşlardan başlanmasını lazım bilərək yazırdı: *"Sokratdan soruşurlar: Sən nə üçün həmişə yeniyetmələrlə həmsöhbət olursan? -deyir: ona görə ki, nazik tər budaqları düzəltmək asandır. Təravəti getmiş, qabığı qurumuş, üzü bərkimiş ağacı düzəltmək isə mümkün deyildir".*

























https://drive.google.com/file/d/1eIJpNtsmq6FIRPlsk6kKz6968UKhOHz3/view

https://drive.google.com/file/d/1Jf8FIBzmZpJN4C7SXMWc3ui5g0QG37wG/view

https://drive.google.com/file/d/1989VPdZIDNjdVtVYcMj6QyvBIS32Tjzs/view

https://drive.google.com/file/d/1Jf8FIBzmZpJN4C7SXMWc3ui5g0QG37wG/view

https://drive.google.com/file/d/1989VPdZIDNjdVtVYcMj6QyvBIS32Tjzs/view

**Nəsirəddin Tusi haqqında deyilmiş fikirlər:**

"Nəsirəddin Tusi Şərq dünyasında fəlsəfə və elmin dirçəldilməsində mühüm rol oynamış nadir şəxsiyyətlərdəndir."

İbn Xəldun

"Tusi XIII əsrin ən böyük alimlərindən biridir. O, təkcə İslam dünyasında deyil, dünya elminin inkişafında mühüm yer tutur."

Corc Sarton

"Tusi yalnız filosof və riyaziyyatçı deyil, həm də yüksək mənəvi dəyərlərə malik böyük mütəfəkkirdir."

Edvard Braun

"Nəsirəddin Tusi Azərbaycan elmi-fəlsəfi fikrinin dünya miqyasında tanınmış zirvələrindəndir."

Həmid Araslı

"Tusinin əsərləri əsrlər boyu Şərq və Qərb alimləri üçün əsas mənbə olmuşdur."

Fuad Köprülü

**Nəsirəddin Tusinin əsərlərinin və kitablarının müzakirəsi:**

Əziz oxucular Nəsirəddin Tusi (1201–1274) – böyük Azərbaycan və İslam alimi, filosof, riyaziyyatçısı, astronom və nəzəriyyəçisdir. O, elm və təhsilin inkişafında mühüm rol oynamış, çoxsaylı əsərlər yazmışdır. N.Tusinin əsərləri yalnız tarixi əhəmiyyətə malik olmayıb, həm də elmi və fəlsəfi biliklərin inkişafı üçün dəyərli mənbələr üzə çıxartmışdır. Onun əsərlərində insan, təbiət və kainat arasındakı əlaqələr ətraflı şəkildə izah olunur, dövrünün elmi və fəlsəfi baxışları əks edilir. Elm və təhsilin inkişafında əhəmiyyətli rol oynamış bu əsərlər yalnız elmi deyil, həm də fəlsəfi və əxlaqi baxımdan oxucular üçün çox dəyərlidir. N.Tusi elm və təhsilin inkişafında əhəmiyyətli rol oynamış, əsərlərində insan, kainat və təbiət arasındakı əlaqələri mükəmməl şəkildə araşdırmışdır. Ona görə də, Tusinin əsərləri fəlsəfi baxımdan böyük dəyərə malikdir. Əsərləri dövrümüz üçün də aktual olan elmi-metodik yanaşmaları ilə Tusi yalnız öz dövrünün deyil, həm də gələcək nəsillərin elmi inkişafına nümunə olmuşdur. Onun əsərləri həm elm, həm də fəlsəfə sahəsində dəyərli mənbə hesab edilir. Bu əsərlərlə onun kitablarının icmallarını keçirib, sual – cavablar hazırlaya bilərik.

**“Əl-Təhrir”və“Əl-Mədaric”** Fəlsəfi əsərlərdir. Metafizika, etik və təbiət elmləri mövzularını əhatə edir.

**“Təhriral-Macalis”** Riyaziyyat və astronomiya sahəsində mühüm əsər. Düsturlar və planetlərin hərəkət prinsipləri izah olunur.

**“Zic-i İlhani”**Astronomik əsər. Planetlərin trayektoriyaları və günəş-ay hərəkətləri sistemləşdirilir.

**“Əxlaqi Nasiri” -** Əxlaq və etik prinsiplər barədə əsər. İnsan mənəviyyatı, cəmiyyət və ideal həyat mövzusunu işıqlandırır.

**Biblioqrafik icmal**

Biblioqrafik icmallar kitabxanada geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Kiçik və ortayaşlı oxucularla işləyən mədəniyyət müəssisəsi olaraq kitabxanada Nəsrəddin Tusinin əsərlərinin icmalını keçirməklə oxucuları astronomiya, fizika, riyaziyyat elminə həvəsləndirmək olar. Mövzuya dair nəzərdə tutulan icmal təşkil edərkən Nəsrəddin Tusinin Riyaziyyata Fizikaya Astronomiya və s. elm sahələrinə həsr etdiyi əsərlərinin əhəmiyyətindən danışa bilərik. Mövzu icmalı keçirilərkən mövzuya həsr edilmiş əsərin daxil olduğu hər kitab haqqında ayrıca məlumat verilir. İcmalı başlayarkən əvvəlində mövzunun adı məsələn astronomiya, nücum elminə həsr edilməsi haqqında məlumat verilir. Məlumdur ki, kitabxanada keçirilən maraqlı təbliğat formalarından biri də oxucular arasında mövzu üzrə təşkil olunmuş sual-cavablardır.

Sual 1: Nəsirəddin Tusi kimdir?

Cavab: Nəsirəddin Tusi (1201–1274) görkəmli Azərbaycan alimi, filosofu, riyaziyyatçısı, astronomu və etik fikir adamıdır.

Sual 2: Nəsirəddin Tusinin ən məşhur əsəri hansıdır?

Cavab: Onun ən məşhur əsərlərindən biri **“Əxlaqi-Nasiri”**dir.

Sual 3: “Əxlaqi-Nasiri” əsəri nədən bəhs edir?

Cavab: Əsər əxlaq, ailə münasibətləri, cəmiyyətin idarə olunmasından bəhs edir.

Sual 4: Nəsirəddin Tusinin elmi əsərləri hansı sahələri əhatə edir?

Cavab: Riyaziyyat, astronomiya, fəlsəfə, məntiq, əxlaq, coğrafiya sahələrini, insanın mənəvi kamilliyi mövzularına həsr olunub.

Sual 5: N.Tusi Astronomiya sahəsində hansı əsərləri yazmışdır?

Cavab: “Zic-i İlxani” adlı əsəri astronomiya sahəsində mühüm elmi mənbədir.

Sual 6: “Zic-i İlxani” nə üçün əhəmiyyətlidir?

Cavab: Bu əsər orta əsrlərdə ulduzların hərəkətinin dəqiq hesablanması üçün istifadə olunmuşdur.

Sual 7: Nəsrəddin Tusi riyaziyyat sahəsində nə ilə tanınır?

Cavab: Trigonometriyanı müstəqil elm sahəsi kimi inkişaf etdirməsi ilə tanınır.

Sual 8: Onun məntiq sahəsində hansı əsərləri var?

Cavab: “Əsasül-iqtibas” adlı əsəri məntiq elminə həsr olunmuşdur.

Sual 9: Nəsrəddin Tusinin əsərləri hansı dillərdə yazılmışdır?

Cavab: Onun əsərləri əsasən fars və ərəb dillərində yazılmışdır.

Sual 10: Nəsrəddin Tusinin əsərlərinin bu gün üçün əhəmiyyəti nədir?

Cavab: Onun əsərləri elmin, əxlaqın və fəlsəfi düşüncənin inkişafında mühüm rol oynayır və bu gün də öyrənilir.

**Əxlaqi Nasiri kitabının icmalı:**




“Əxlaqi-Nasiri” əsəri bütün dövrlər üçün əhəmiyyətini itirməyən, təlim-tərbiyə, əxlaq və digər davranış qaydalarına dair qiymətli fikirlərlə zəngin olan əbədiyaşar bir əsərdir.

**Tusi, Xacə Nəsirəddin. Əxlaqi-Nasiri - Bakı : Kitab klubu, 2016. - 336 s.**

**Kitabxanaçı:** Bu gün sizə Nəsrəddin Tusi’nin məşhur əsəri “Əxlaqi Nasir”dən danışmaq istəyirəm. Əsərdə müəllif insanın mənəvi və əxlaqi inkişafına diqqət yetirir. O, dürüstlük, səbir, təvazökarlıq kimi keyfiyyətlərin yalnız fərdi həyat üçün deyil, həm də cəmiyyət üçün vacib olduğunu vurğulayır. Əsərdə həmçinin elm və bilik əldə etməyin insanın mənəvi kamilliyinə töhfə verdiyi göstərilir.Qısaca desək, “Əxlaqi Nasir” əxlaqın həm şəxsi, həm də ictimai həyatda əsas rol oynadığını bizə xatırladır. Oxumağa dəyərli bir əsərdir! “Əxlaqi Nasir” əsərində Nəsrəddin Tusi insanın mənəvi və əxlaqi inkişafını əsas mövzu kimi təqdim edir. O, şəxsi əxlaqın—dürüstlük, səbir, təvazökarlığın kitabda əhəmiyyətini vurğulayır və ictimai münasibətlərdə etik davranışın cəmiyyət üçün vacib olduğunu göstərir. Tusi həmçinin elmin və bilik əldə etməyin insanın mənəvi kamilliyinə töhfə verdiyini bildirir. Əsərin əsas mesajı odur ki, əxlaq yalnız fərdi həyat üçün deyil, həm də cəmiyyət üçün lazımdır. “Əl-Təhrir” və“Əl-Mədaric” əsəri isə Nəsrəddin

Tusinin riyaziyyat, fəlsəfə və təbiət elmlərinə dair yazdığı elmi və etik mülahizələrin toplusudur. Əsərdə müəllif əsasən insan əxlaqı, sosial ədalət və bilik yolunda səylə irəliləməyin əhəmiyyətini vurğulayır. Əsas mövzusu insan əxlaqı və kamillik yolları, elm və təhsilin əhəmiyyəti, Ədalət prinsipləridir. Bu əsər həm tarixi, həm də müasir oxucu üçün əxlaqi və fəlsəfi yol göstəricisidir. Kitabxanalar üçün vacib əlavədir, oxuculara həm elmi, həm də əxlaqi bilikləri təqdim edir.

**Cəvahirnamə:**

Cəvahirnamə Nəsirəddin Tusinin elm tarixində mühüm yer tutan mineraloji–təbiətşünaslıq əsərlərindən biridir. Əsərin adı "cəvahir" – yəni qiymətli daşlar, minerallar mənasını verir. Əsərin əsas xüsusiyyətləri qiymətli və yarımqiymətli daşlar, metallar, onların növləri, fiziki xüsusiyyətləri haqqındadır. Əsərdə əsasən mineralogiya, təbiət elmlərindən söhbət açılır. Əsər orta əsr elmi ənənəsinə uyğun olaraq fars dilində yazılmışdır. Məzmun baxımından əsərdə daşların rəngi, sərtliyi, parıltısı, faydası haqqında məlumatlar verilmiş, mineralların təbii yaranma səbəbləri, daşların tibbdə və məişətdə istifadəsi, batil inanclardan çox, rasional və elmi izahları açılmışdır.  Əsərin yazılması Şərqdə mineralogiya elminin inkişafına mühüm töhfə hesab edilir.




**Kesmegülü Müzeyyen Çelik. Nəsirəddin Tusi. - Bakı : İpəkyolu , 2022. - 40 s. : rəngli il., xəritə ; 24 sm.**

Kitabda əsrlər əvvəl yaşamış həndəsə və riyaziyyat alimi Nəsirəddin Tusinin elmi fəaliyyətlərinə və ixtiralarına şahid olacaqsınız. Nəsirəddin Tusinin riyaziyyat, həndəsə, astronomiya, rəsmxət kimi sahələrdə tədqiqatları olmuşdur. Öz dövründə zəifləyən riyaziyyat sistemini yenidən tərtib edən N.Tusi həndəsə barədə araşdırmaları ilə dünyada məşhur həndəsənin təməlininin qoyulmasında böyük töhfələr vermişdir.

**Marağa Rəsədxanası və Nəsrəddin Tusi**

Marağa rəsədxanasının qurulması orta əsr elminin ən mühüm hadisələrindən biri hesab olunur və birbaşa Nəsrəddin Tusinin adı ilə bağlıdır. XIII əsrin ortalarında (təxminən 1259-cu ildə) monqol hökmdarı Hülakü xanun himayəsi  Nəsrəddin Tusinin fikri ilə Marağa şəhərində böyük bir elmi mərkəzin – rəsədxananın yaradılmasına başlanılmışdır. Hülakü xan xüsusilə astronomiyanın dövlət idarəçiliyi və təqvimlərin hazırlanması baxımından əhəmiyyətini anlayıb onu tikdirdikdən sonra rəsədxananın rəhbərliyini Nəsrəddin Tusiyə tapşırmışdır. Qurulma prosesində Nəsrəddin Tusinin təşəbbüsü ilə Marağa rəsədxanası sadəcə müşahidə məkanı deyil,

kompleks elmi mərkəz kimi nəzərdə tutulmuşdur. Rəsədxananın tərkibinə astronomik müşahidə qurğuları, zəngin kitabxana (400 mindən çox kitab olduğu qeyd edilir), alimlərin yaşayıb, işləməsi üçün xüsusi binalar daxil olacaqdı. Marağa rəsədxanasında aparılan müşahidələr əsasında "Zic-i Elxani" adlı məşhur astronomik cədvəllər tərtib edilmişdir. Bu əsər uzun müddət Şərq və Qərb astronomiyasında əsas mənbələrdən biri olmuşdur. Rəsədxanada müxtəlif ölkələrdən – Azərbaycan, İran, Orta Asiya, Çin və Bizansdan olan alimlər fəaliyyət göstərirdi. Marağa rəsədxanası sonrakı Səmərqənd (Uluqbəy) rəsədxanasına nümunə olmuş, astronomiyanın riyazi əsaslarının inkişafına güclü təsir göstərmiş, Nəsrəddin Tusinin dünya elmi tarixində nüfuzunu daha da artırmışdır.

Kitabxanada marağa rəsədxanası mövzusunun təbliği elmi Nəsirəddin Tusinin xidmətlərinin cəmiyyətə çatdırılması üçün böyük əhəmiyyət daşıyır. Bu mövzunun kitabxana, təhsil və mədəniyyət mühitində təbliği üçün sərgi, oxucu konfransı, kitab icmalı kimi tədbirlər keçirə bilərik. Sərgidə rəsədxananın maketini uşaqlar üçün maraqlı olsun deyə istifadə edə bilərik. Kitabxanada Marağa rəsədxanası haqqında məlumatların təbliğinin məqsədi gənclərdə elmə marağı artırmaq, milli-mədəni irsimizi onlara tanıtmaq, Azərbaycan elminin dünya sivilizasiyasına verdiyi töhfələri ön plana çıxarmaqdır. Bu baxımdan onlara **"Rəhbər elm adamları"** silsiləsindən olan ixtiralara və kəşflərə verdiyi dəstəklə elm tariximizi tanıdan alimlərimizi tanıdan hekayə kitabını təqdim edə bilərik. Məcara ilə dolu bu sirli kitabın mütaliəsində uşaqlar elm tariximizdə çox böyük əməyi olan Nəsirəddin Tusi haqqında çox əhəmiyyətli məlumatlar öyrənəcəkdir. Kitabı oxumaqla uşaqlar alim haqqında bir çox maraqlı suallara cavab tapacaqlar. Bu kitabın kitabxananın nağıl otağında ***"Gəlin bir hekayə dinləyək"*** adlı hekayə saatını keçirə bilərik. Müəyyən edilmiş vaxtda dəvət edilmiş uşaqlara kitabxanaçı Nəsrəddin Tusi haqqında danışdıqdan sonra sual - cavab edir.

**1.** Nəsirəddin Tusi harada anadan olmuşdur?
Bağdad
Xorasan
Niş
Tus

**2.** Nəsirəddin Tusi hansı xarici dildəki əsərləri ərəb və fars dillərində tərcümə etmişdir?
Latınca
Urduca
Yunanca
Hindcə

3. Nəsirəddin Tusinin qurduğu rəsədxananın adı nədir?
   Marağa
   Zic
   Babil
   Bağdad
4. Nəsirəddin Tusi təhsil həyatının ilk dövrlərində hansı fəaliyyəti ilə diqqət mərkəzində olmuşdur?
   Öz dövründə ilk cərrahi əməliyyatı gerçəkləşdirmişdir.
   Dağınıq olan riyaziyyat sistemini yenidən tərtib etmişdir.
   Yeni mədənlər kəşf etmiş və onların istifadəsini izah etmişdir.
   İlk üsturlabı (ulduz ölçəni) ixtira etmiş və istifadə etmişdir.

Bağdad alınan kimi Hülaku xandan icazə istəyib işə başlaması Rəsədxana qurmaq haqqında Nəsirəddinin çoxdan fikirləşməsinin bir sübutudur. O, tez bir zamanda rəsədxananın tikiləcəyi yeri müəyyənləşdirib, astronomik cihazlar hazırlamış, müxtəlif şəhərlərdən burada yaradılacaq kitabxana üçün qiymətli kitablar gətirmişdir və rəsədxanada araşdırmalar aparmaqdan ötrü dünyanın bir çox ölkəsindən alimlər dəvət etmişdir.

Tusi özü "Zici-Elxani" adlı əsərində bu barədə belə yazırdı: "Hülaku xan ətraf vilayətlərdən astronomik müşahidələr apara bilən alimləri çağırmağı tələb etdi: Dəməşqdən Müvəidəddin Ordini, Mosuldan Fəxrəddin Marağayini, Tiflisdən Fəxrəddin İxlatini, Qəzvindən Nəcməddin Dəbiranini." Digər qaynaqlardan isə dövrün ən tanınmış alimlərindən Qütbəddin Şirazi, Şəmsəddin Şirvani, Cəmaləddin əz-Zeydi Buxari, Fao Mun-Çi və digərlərinin də Marağa rəsədxanasında çalışdıqları məlum olur. Burada bir məsələyə də toxunmaq maraqlı olardı. Görkəmli siyasi xadim və tarixçi Rəşidəddinin öz salnamələrində yazdığına görə həmin dövrdə Camaəddin Buxariyə də Pekində rəsədxana qurmaq tapşırılmışdı. Lakin o, bu tapşırığın öhdəsindən gələ bilmirdi. Nəhayət, Çin alimi Fao Mun-Çi ilə birlikdə Marağaya gəlib, Nəsirəddinlə məsləhətləşmələr apardıqdan və rəsədxana tikilişi üçün zəruri olan alətlərin çertyojlarını əldə etdikdən sonra Pekində də işlər başa çatdırılır. Rəsədxana yaradılması üçün külli məbləğdə pul qoyuluşu tələb edilirdi və Hülaku xan bu işi məqsədə uyğun saymırdı. Tanınmış tarixçi Hacı Xəlifə özünün "Dünya haqqında kitab"ında bununla əlaqədar baş verən hadisələri belə təsvir edir: "Xacə Nəsir Marağadakı astronomiya rəsədxanasının tikintisinə başlamaq üçün lazım gələn məsarifi Hülakuya deyəndə, o, məbləğin böyüklüyünə şübhə ilə soruşdu: "Yəni, ulduzlar haqqında elm belə faydalıdır ki, rəsədxanaya bu qədər pul xərcləyək?" Nəsir cavabında söylədi: "İzn verin, bir nəfər həmin dağa qalxıb, ordan boş bir tası yerə atsın, ancaq bunu elə eləsin ki, heç kəs bilməsin." Belə də edirlər. Tas qayalara dəyə-dəyə qorxulu səslər çıxarır. Hülaku xanın ordusu vahiməyə düşür.

Nəsirəddinsə bu zaman xanla birlikdə sakitcə oturub, qoşundakı vahiməni seyr edirdilər. Nəsirəddin xana deyir: "hökmdar, biz qayalardan gələn səsin səbəbini bildiyimizdən sakitcə əyləşmişik. Qoşun isə bunu bilmədiyi üçün həyəcan içindədir. Əgər biz səmada baş verən hadisələrin mahiyyətini irəlicədən bilsək, yer üzündə həmişə belə rahatlıq hökm sürər." Nəsirəddinin sözləri Hülaku xanı elə inandırır ki, o, rəsədxananın tikintisinə razılıq verir və bu məqsədlə 20 min dinar pul buraxır. Sonralar böyük alim rəsədxanada çalışan yüzdən artıq alimə həmişəlik məvacib kəsilməsinə də nail olur. Bu məvacib Nəsirəddinin təşəbbüsü ilə vergilərdən yığılan vəsait hesabına ödənilirdi. Rəsədxananın tikintisi 1259-cu ildə Marağa şəhərinin qərbindəki təpənin döşündə başlanır. Nəsirəddin rəsədxana binalarının layihələşdirilməsində və astronomik cihazların qurulmasında şəxsən iştirak edir. Görkəmli astronom və konstruktor Müəyyidəddin Ordi ilə birlikdə rəsədxanada beş yeni, bir o qədər də köhnə konstruksiyalı astronomik cihaz quraşdırırlar. Yeni konstruksiyaları alimlərin özləri işləyib – hazırlayır. Bundan başqa Marağa rəsədxanasında bir sıra astronomik məsələlərin həlli üçün zəruri sayılan, həmçinin tədris məqsədilə istifadə olunan yer və göy qlobusları da hazırlanırdı. Ordinin oğlu Məhəmməd tərəfindən hazırlanmış göy qlobuslarından biri bizim günlərə qədər çatmış və hal-hazırda Almaniyanın Drezden şəhərində saxlanır. Rəsədxananın nəzdində 400 min kitab saxlanan kitabxana və bu elmi mərkəzi kadrlarla təchiz etməkdən ötrü məktəb fəaliyyət göstərirdi. Maraqlı burasında idi ki, rəsəxanada Müsəlmanlarla birgə xristianlar, buddistlər, nestorianlar və iudaistlər də çalışırdı. Bunlar türklər, farslar, ərəblər, monqollar, çinlilər, gürcülər, tatarlar, yəhudilər və digər millətlərin nümayəndələri idilər. Tusinin tikdirdiyi rəsədxana öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoyur. Marağa rəsədxanasında çalışan əməkdaşların elmi fəaliyyəti və astronomik müşahidələri "İlxanilərin astronomik cədvəlləri" adlandırılan kollektiv əsərin yaranmasına gətirib çıxarmışdı. Bu cədvəllərin sonuncusu 1284-cü ildə, artıq Nəsirəddinin vəfatından sonra tərtib edilmişdi. Cədvəllər dörd kitabdan ibarətdir. Birinci kitabda yunan, fars, yəhudi, ərəb və türk təqvimləri təsvir olunur və bir təqvimdən digərinə keçməyin qaydaları göstərilirdi. İkinci kitab ulduzların hərəkətinə və onların ekliptik koordinatlarının yerləşməsinə həsr olunub. Elə buradaca sinus və tangenslərin cədvəlləri, habelə 256 məntəqənin yerləşdiyi uzunluq və en dairəsi göstərilir. Nəsirəddin uzunluq dairəsinin ölçüsünü Qrinviç meridianından 34-35 dərəcə qərbdən götürərək, Cənubi Amerikanın şərq hissəsindən keçirir. Professor Həbibulla Məmmədbəyli buna əsaslanaraq, belə bir ehtimal irəli sürmüşdür ki, o dövrün astronom və coğrafiya mütəxəssisləri hələ Kolumbdan çox-çox qabaq qərb yarımkürəsində sonralar Amerika adlandırılmış materikin varlığından xəbərdar imişlər. "Cədvəllər"in üçüncü və dördüncü kitabları astrologiya məsələlərinə həsr olunub. AMEA-nın müxbir üzvü Zakir Məmmədov Nəsirəddin Tusinin irsini araşdırarkən mənbələr

əsasında belə bir faktı qeyd edir ki, 1266-cı ildə Marağa rəsədxanasında N.Tusi ilə bir yerdə çalışan azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Səlmasinin düzəltdiyi cihazlar arasında içiboş yer kürəsi modeli də varmış. Üzərində iqlimlərin təsviri verilmiş bu fiqur coğrafi qlobus idi. Bununla da Zakir Məmmədov elm aləmində ilk coğrafi qlobusun alman alimi Martin Böhaymın (1459-1507) hazırlaması haqqında fikri elmi fakt əsasında təkzib etmişdir. Marağa rəsədxanası tətbiqi astronomiyanın inkişafında müstəsna rol oynayıb.

Tusi Marağa Rəsədxanasının direktoru kimi astronomik instrumentlərin təkmilləşdirilməsi (Asturlab), yeni gözləmlər aparılması (Zic-i İlkhani) və Tusi-quşağı kimi riyazi/astronomik modellərin yaradılması ilə fizika və astronomiyanın inkişafında həlledici rol oynamışdır.

**Ssenari:Elm və ağlın zirvəsi - Nəsrəddin Tusi**

*Səhnə qurulur. İştirakçılar və aparıcı səhnəyə gəlir. Səhnədə sakit musiqi səslənir. Aparıcı önə çıxır.*

**Aparıcı:** XIII əsr… Tus şəhəri. Elm və düşüncənin qaranlıqla mübarizə apardığı bir dövr. Bu şəhərdə gələcəkdə Şərq və dünya elminə damğa vuracaq bir alim dünyaya gəlir – Məhəmməd Nəsrəddin Tusi. O, gələcəkdə Şərq dünyasına nur saçan böyük bir alim kimi yetişirdi. Bu gün sizinlə onun elmi irsi və həyat yoluna qısa bir səyahət edəcəyik.

**Aparıcı:**XIII əsr… Tus şəhəri. *Kitablarla dolu Məkan: Atası kitab oxuyur. Gənc Nəsirəddin diqqətlə onu dinləyir.)*

**Ata:** Elm insanı ucaldar, oğlum. Bilik insanın ən böyük xəzinəsidir.

**Nəsirəddin:** Ata, mən ulduzların niyə hərəkət etdiyini bilmək istəyirəm. Kainatın sirrlərini öyrənmək istəyirəm. Ulduzları, rəqəmləri, həqiqəti…

**Ata gülümsəyir:** O zaman çox oxumalı, çox düşünməlisən. Oğlum, elm insanı ucaldar. Oxu, öyrən, xalqa faydan dəysin.

*Nəsrəddin masa arxasında yazır*

**Aparıcı:** Qarışıq dövr idi. Müharibələr, siyasi çəkişmələr alimlərin yolunu çətinləşdirirdi. Amma Tusi elmdən vaz keçmədi. Mədrəsədə müəllimi belə onun istedadını hiss edirdi

*Məkan: Mədrəsədə müəllim lövhə qarşısındadır. Tusi sual verir.*

**Tusi:**Riyazziyyatı nə üçün bilməliyik?

**Müəllim:** Riyaziyyat kainatın dilidir.

**Nəsirəddin:** Deməli, kainatı anlamaq üçün hesabı da bilməliyik. Bəli, elm müharibədən güclüdür. Zaman keçəcək, amma bilik qalacaq.

**Müəllim:** Düz deyirsən, Nəsrəddin. Səndən böyük alim çıxacaq. Sənin riyaziyyat və fəlsəfədə böyük istedadın var.

**Tusi:** Elm sərhəd tanımır, müəllim. İnsan biliyi ilə dünyanı dəyişə bilər.

**Aparıcı:** Tusi riyaziyyat, astronomiya, fəlsəfə və məntiq sahələrində dərin biliklər qazanır, elmi əsərlər yazır.

*Marağa rəsədxanasının yaranması üçün Hülaki xanla görüş:*

**Hülakü xan:** Tusi, elm üçün nə istəyirsən?

**Tusi:** Rəsədxana… Ulduzları öyrənmək üçün bir mərkəz.

**Aparıcı:** Beləliklə, Marağa Rəsədxanası yaradılır hansıki dövrünün ən böyük elmi mərkəzlərindən biri oldu.

**Alim:** Bu hesablamalar Avropada belə yoxdur!

**Aparıcı:** Nəsrəddin Tusi yüzlərlə elmi əsərin müəllifidir. Onun ideyaları sonrakı əsrlərdə Avropa alimlərinə də təsir göstərmişdir. Həqiqətən sübut etmişdir ki, insan ağlı ən böyük xəzinədir. Gəlin onu qoruyaq!

Elmin işığında Nəsirəddin Tusi adlı tədbirin ssenarisi:

Səhnəyə iştirakçılar – aparıcı, Nəsirəddin Tusi, şagird, alim və tarixçilər gəlir.

*(Gənc Tusi səhnədə kitab oxuyur. Şagird səhnəyə gəlir)*

**Şagird:** Ustad, siz niyə daim oxuyur, öyrənirsiniz?

**Nəsirəddin Tusi:** Çünki elm insanı ucaldar. Bilik yalnız oxuyan üçün deyil, bütün bəşəriyyət üçün lazımdır.

**Şagird:** Sizcə elm nə üçün lazımdır?

**Nəsirəddin Tusi:** Elm insanı düşünməyə, haqqı tapmağa və ədalətli olmağa aparır.

*(Səhnəyə daxil olan alim)*

**Alim:** Nəsrəddin Tusi astronomiya, riyaziyyat, fəlsəfə və əxlaq sahəsində böyük əsərlər yazmışdır. Onun rəhbərliyi ilə Marağa Rəsədxanası qurulmuşdur.

**Nəsirəddin Tusi:** Elm səbr və zəhmət tələb etsə də biz ulduzlara baxaraq kainatı, insanı anlayırıq.

*(Tarixçi önə çıxır)*

**Tarixçi:** Nəsrəddin Tusi yalnız alim deyil, həm də böyük mütəfəkkir idi. Onun "Əxlaqi-Nasiri" əsəri dövrümüzdədə aktualdır. Onun əsərləri elmi Şərqdən Qərbə daşıyan körpülərdən biri olmuşdur.

Sonda musiqi səslənir

**Aparıcı:** Nəsirəddin Tusi bizə göstərdi ki, elm zamandan, məkandan asılı deyil.

***Marağa rəsədxanasının tikilməsi səhnəciyi isə kitabxanada kiçikyaşlı uşaqlara tapşırılır.***

*Məkan: Saray . Səhnəyə iştirakçılar gəlir:*

XIII əsr. Elmin və fəlsəfənin taleyinin yenidən yazıldığı bir dövr. Şərqin böyük alimi Nəsirəddin Tusi bilik və ağıl gücü ilə dövrünün ən möhtəşəm elmi mərkəzlərindən birini – Marağa Rəsədxanasını yaratmağa doğru addımlayır.Tusi və Hülakü xan qarşı-qarşıya oturublar.

Hülakü xan: Deyirlər, elm göyləri danışdırır. Bu mümkündürmü?

**Nəsirəddin Tusi:** Elm gücdür, xaqan. Rəsədxana qurularsa, zamanın və kainatın qanunlarını anlayarıq.

**Hülakü xan:** Elə isə Marağada böyük bir rəsədxana tikilsin!
Sənin elmin haqqında çox eşitmişəm.

**Nəsirəddin:** Elm yalnız hökmdarlara deyil, bütün insanlığa xidmət etməlidir.

*Məkan: Marağa təpələri (Alimlər, memarlar, fəhlələr. Alətlər və xəritələr.)*

**Aparıcı:** 1259-cu ildə Marağa Rəsədxanasının tikintisinə başlandı. Burada kitabxana, müşahidə alətləri və elmi məktəb yaradıldı.

**Alim:** Burada minlərlə kitab toplanacaq.

**Tusi:** Bura yalnız bina deyil, elm məbədi olacaq.

*Tikilidən sonra Rəsədxananın daxili: (Alimlər ulduzları müşahidə edir, hesablamalar aparırlar.)*

**Aparıcı:** Marağa Rəsədxanası Şərqin ən böyük elmi mərkəzinə çevrildi. Burada “Zic-i Elxani” kimi möhtəşəm əsərlər yaradıldı.

**Gənc alim:** Ustad, bu hesablamalar gələcək nəsillərə yol göstərəcək.

**Tusi:** Elm zaman tanımaz.

*Səhnə önündə rəsədxana maketi*

**Aparıcı:** Marağa Rəsədxanası yalnız öz dövrünə deyil, gələcək elmi inkişaflara da təsir göstərdi.

**Hamı birlikdə:** Elm yaşadıqca, Nəsirəddin Tusi yaşayacaq!

**Ədəbiyyat siyahısı:**

1. Tusi Xacə Nəsirəddin. Cavahirnamə (Tənsuqnameyi-Elxani): 40 hədis. - Bakı : Müəllim, 2005. - 46 s.

2. Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri - Bakı : Kitab klubu, 2016. - 336 s.

3. Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasir. - Bakı : Lider nəşriyyatı, 2005. - 328 s.

4. Tusi Xacə Nəsirəddin. Övsafül-Əşraf: Şərafətli insanların xüsusiyyətləri . - Bakı : Darul-Huda, 2005. - 80 s

5. Tusi, Xacə Nəsirəddin. "Şərh Əl-İşarat" . - Bakı : Nurlan, 2004. – 385 s.

6. Tusi Xacə Nəsirəddin. Tozlu lövhənin köməyi ilə hesab toplusu - Bakı : Azərbaycan Universiteti nəşriyyatı, 2011. - 176 s.

**Haqqında kitablarda**

1. Quliyev Aqşin. Nəsrəddin Tusi dövlət, siyasət və qanun haqqında - Bakı : 2001. - 268 s.

2. Məmmədova Şöhrət Nüsrət. Azərbaycan uşaq ədəbiyyatı antologiyası : 3 cilddə III cild : Nəsr . - Bakı : ADPU, 2019. - 563 s.

3. Nəcəf Əkbər Nadir oğlu. Nəsirəddin Tusi. - Bakı : Altun Kitab, 2024. - 160 s.

4. Rzayev Ağababa Qasım oğlu. Nəsirəddin Tusi: həyatı, elmi, dünyagörüşü. - Bakı : Kitab klubu, 2015. - 296 s.

**Dövri mətbuat:**

**Haqqında dövri mətbuatda:**

1. Abbaslı Tahir. Akademiya - adam // Mədəniyyət. - 2012. - 22 fevral. - № 12. - S. 13.

2. Abbaslı Tahir. Dahi elm və əxlaq Adamı : // Mədəniyyət. - 2017. - 15 fevral. - № 12. - S. 13.

3. Babayev Yaqub. Nəsrəddin Tusi: ədəbiyyatşünas, // Azərbaycan. - 2011. - № 9. - S. 127-138.

4. Bayramova Yeganə. Şərqin Aristoteli // Yeni Azərbaycan. - 2025. - 18 fevral. - № 29. - S. 8.

5.Cəfərov Nizami. "Şahnamə"də türklər... Və türklərdə "Şahnamə"// Ədəbiyyat qəzeti. - 2021. - 3 aprel. - № 13. - S. 12-13.

6. Eminov Allahverdi. Nəsirəddin Tusidən Kolumba “ötürülən” kəşfi// 525-ci qəzet. - 2022. - 17 fevral. - № 30. - S. 12

7. Eminov Allahverdi. Oğurlanmış xəritənin sirri : X. Kolumb Amerikanı N. Tusinin xəritəsiylə kəşf edib // Qobustan. - 2018. - № 1. - S. 63-66

8. Əliyeva Mehparə. Dahi Azərbaycan alimi, mütəfəkkiri Nəsirəddin Tusi // Respublika. - 2022. - 17 fevral. - № 36. - S. 6

9. Hacızadə Səbinə. Nəsirəddin Tusinin əsərlərində tərbiyə məsələləri // Məktəbəqədər və ibtidai təhsil. - 2017. - № 2. - S. 70-72.

10. Xacə Nəsrəddin Tusi ilə bostançı : Əfsanəvi və tarixi şəxsiyyətlər haqqında rəvayətlər. - // Savalan. - 2019. - 16-22 iyul. - № 27. - S. 5

11. Xacə Nəsirəddin Tusi ilə bostançı : Əfsanəvi və tarixi şəxsiyyətlər haqqında rəvayətlər. - // Savalan. - 2015. - 28-31 iyul. - № 49/50. - S. 5.

12. Xacə Nəsirəddin Tusi ilə bostançı. - // Savalan. - 2024. - 23-29 aprel. - № 15. - S. 5.

13. İsaxanlı Hamlet. Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? // Xəzər. - 2011. - № 1. - S. 28-32. ; N 2. - S.24-27. ; N 3. - S. 28-32. ; N 4. - S. 20-25. ; N 5. - S.28-33. ; N 6. - S.26-30. ; N 7. - S.26-30. ; N.9 (299). - S.20-22. ; N 300. - S.30-34.

14. Kənan. Dahi alim, mütəfəkkir, filosof : Nəsirəddin Tusi - 810 // Mədəniyyət. - 2011. - 18 fevral. - № 13. - S. 12.

15. Qasımov Ramiz. Elm və mədəniyyət tariximizdə Nəsrəddin Tusi yaradıcılığına // 525-ci qəzet. - 2018. - 15 iyun. - № 108. - S. 23.

16. Qurbanqızı Zümrüd. Dünya elminin parlaq siması // Respublika. - 2024. - 17 fevral. - № 36. - S. 11.

17. Məmmədova Aytək. Əsrlərin yaşatdığı ensiklopedik alim // Respublika. - 2023. - 24 iyun. - № 133. - S. 13.

1. Məmmədova Aytək. Elmi xidmətlərilə yaşayan alim // Respublika. - 2024. - 25 iyun. - № 130. - S. 7.

2. Nəsirəddin Tusi - Əlamut giriftari. - // Qobustan. - 2015. - № 1. - S. 5.

3. Nəsrəddin Tusi - Əlamut giriftarı. - // Qobustan. - 2015. - № 1. - S. 5-6.

1. Nuri Elmin. Ən qədim kitabxanalar // Naşir. - 2015. - № 2. - S. 50-55.

2. Ömərov Vahid. Azərbaycanın və bütün şərqin elm fədaisi : Nəsirəddin Tusi haqqında // Səs. - 2014. - 22 aprel. - № 71. – s.15

3. Ömərov Vahid. Nəsirəddin Tusi yaradıcılığında bərabərlik və azadlıq ideyası // Səs. - 2016. - 2 aprel. - № 57. - S. 15.

4. Ömərov Vahid. Nəsirəddin Tusi yaradıcılığında ədalət, azadlıq və insan haqları məsələləri // Səs. - 2016. - 7 aprel. - № 60. - S. 15.

2. Paşayev Qəzənfər. Tariximizdə iz qoyan şəxsiyyətlərə ehtiramla. - // Qobustan. - 2024. - № 4/204. - S. 39-47.

1. Tapdıq Şəfa. Nəsrəddin Tusinin milliyyətcə türk olduğu şübhə doğurmur : onun irsini araşdıran tarixçi alimlər böyük mütəfəkkirin fars kimi təqdim edilməsinin elmi əsası olmadığını deyirlər // Kaspi. - 2016. - 7 sentyabr. - № 140. - S. 6.

2. Yaqubqızı Ramidə. Riyaziyyatçı alim, filosof, təbib və dövlət xadimi Nəsirəddin Tusi // Respublika. - 2023. - 17 fevral. - № 36. - S. 6.

3. Yılmaz Reha. Alimlər alimi - Nəsirəddin Tusi // Savalan. - 2023. - 14-27 mart. - № 10. - S. 4.

2. Yaqubqızı Ramidə. Dünya elminin korifeylərindən biri Nəsirəddin Tusi // Respublika. - 2025. - 16 fevral. - № 35. - S. 11.

2. Yılmaz Reha. Alimlər alimi - Nəsirəddin Tusi . - // Savalan. - 2012. - 17- 20 fevral. - № 11. - S. 2. ; = 21-23 fevral. - № 12. - 2

1. Zakirqızı Aytək. (Məmmədova). Nəsirəddin Tusi türkdü, yoxsa?... : böyük mütəfəkkirin milli mənsubiyyəti və elm tarixindəki xidmətləri haqqında // Kaspi. - 2014. - 29 mart. - № 51. - S. 21.

**Kitab içi**

1.Abbasov Vaqif. Nəsirəddin Tusi - dahi astronom, riyaziyyatçı, XIII əsrin ən böyük alimi // Dahilərin, müdriklərin və fatehləruin həyat dərsləri. - Bakı : Təhsil, 2010. - S. 190-234

2. Xacə Nəsrəddin Tusi ilə bostançı : rəvayət. // Tarixi rəvayətlər. - Bakı : Təhsil, 2009. - S. 30-33.

3.Qacar Çingiz. Elm səltənətinin kralı : // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - Bakı : OKA ofset, 2012. - S. 169-175

4. Nicat Əlisa. Nəsirəddin Tusi (1201-1274) / Ə. Nicat. - // Müdriklik məbədi. - Bakı : Nərgiz, 2005. - S. 207-233

5. Yılmaz Reha. Alimlər alimi Nəsirəddin Tusi // Tariximizdə iz qoyanlar. - Bakı : Xəzər, 2008. - S. 145-159.